**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ PHŞ**

Ə M R : Elmi hissə-223

Naxçıvan şəhəri 1 DEC 2023

Əməyin stimullaşdırılması haqqında

Universitet əməkdaşlarının nəticə yönümlü elmi fəaliyyətlərinin davamlılığını təmin etmək üçün 2023-cü ilin elmi fəaliyyət göstəricilərinə əsasən stimullaşdırıcı mexanizm aşağıdakı qaydada müəyyən olunsun:

I. Akademik heyətin fəaliyyətinin qiymətləndirilməsi mexanizminə əsasən müəyyən olunan kateqoriyalara əsasən professor-müəllim heyətinin əməkhaqlarına 2024-cü ilin ayları üzrə əlavələr aşağıda göstərilən qaydada verilsin:

1. 2023-cü il ərzində qiymətləndirmə meyarı əsasında universitet üzrə ən yüksək bal toplayan, sıralamada 1-10-cu yerlərdə olan əməkdaşların vəzifə maaşlarının 25%-i miqdarında;
2. 2023-cü il ərzində qiymətləndirmə meyarı əsasında universitet üzrə sıralamada ən yüksək bal toplayan, sıralama üzrə 11-30-cu yerlərdə olan əməkdaşların vəzifə maaşlarının 15%-i miqdarında;
3. 2023-cü il ərzində qiymətləndirmə meyarı əsasında universitet üzrə sıralamada ən yüksək bal toplayan, sıralama üzrə 31-50-ci yerdə olan əməkdaşların vəzifə maaşlarının 10%-i miqdarında.

II. Əməkdaşların 2023-cü ildəki elmi-tədqiqat fəaliyyəti nəticəsində əldə olunan gəlirlərin davamlılığını təmin etmək məqsədi ilə indeksli nəşrlərə görə aşağıdakı kateqoriyalar üzrə birdəfəlik mükafat verilsin:

1. “Clarivate Analytics” şirkətinin “Web of Science” indeksində və “Elsevier” şirkətinin “Scopus” indeksində yer alan jurnallarda məqalə nəşr etdirdiyinə görə hər bir məqalə üçün 1000 (min) manat miqdarında mükafat;
2. “ERIH PLUS”, “AGRIS”, “Copernicus”, “Pub Med” və digər indeksli bazalara daxil olan beynəlxalq indeksli jurnallarda məqalə nəşrinə görə hər bir məqalə üçün 200 (iki yüz) manat miqdarında mükafat;
3. Azərbaycan Respublikası, o cümlədən müxtəlif ölkələrin Ali Attestasiya Komissiyaları və ya onu əvəz edən qurumlar tərəfində qeydiyyata alınan beynəlxalq indeksli digər jurnallarda məqalə nəşr etdirdiklərinə görə hər bir məqalə üçün 100 (yüz) manat miqdarında mükafat.

III. Əməkdaşların Google scholar bazasında mövcud olan elmi əsərlərinə görə 2023-cü ildə ən çox istinad alan və universitet reytinqində ilk 3 sırada olan hər bir əməkdaşa göstərilən qaydada birdəfəlik mükafat verilsin:

I sıra: 500 (beş yüz) manat məbləğində

II sıra: 300 (üç yüz) manat məbləğində

III sıra: 150 (yüz əlli) manat məbləğində

IV. Əməkdaşların Google scholar bazasında mövcud olan məqalələrinə görə 2023-cü ilin yekunlarına görə ən yüksək h-indeksi olan və universitet reytinqində ilk 3 sırada olan hər bir əməkdaşa göstərilən qaydada birdəfəlik mükafat verilsin:

I sıra: 500 (beş yüz) manat məbləğində

II sıra: 300 (üç yüz) manat məbləğində

III sıra: 150 (yüz əlli) manat məbləğində

Əsas: Naxçıvan Dövlət Universiteti Elmi şurasının 22 sentyabr 2023-cü il tarixli 02 saylı qərarı və rektorun sərəncamı

Verilsin: Elm və innovasiya məsələləri üzrə prorektor, Tədris və tərbiyə işləri üzrə prorektor, Sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektor, Elmi fəaliyyətin təşkili və təhlili şöbəsi, Texnoloji transfer və

innovasiyalar bölməsi, Kadr və ümumi işlər şöbəsi, Maliyyə şöbəsi, bütün dekanlıqlar və kafedralar

| | |
|---|---|
| Əlavə sənəd | |

| | |
|---|---|
| Təsdiq rəyi | [Allahverdiyeva Elnarə İslam:12 5 2023 5:13PM]<br>[Əsədov Elsevər Sabir:12 5 2023 5:14PM]<br>[Novruzov Vüsal Xeybər oğlu:12 5 2023 5:16PM]<br>[Məmmədov Elşən Neymət:12 5 2023 5:20PM]<br>[Atilla Öztürk Əsgər oğlu:12 5 2023 5:20PM]<br>[İsayev Elbrus Saleh:12 5 2023 5:34PM]<br>[Hüseynova Nüşabə Tofiq:12 5 2023 5:52PM] |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| Təsdiq | Kərimova Gülsüm | Allahverdiyeva Elnarə İslam | Əsədov Elsevər Sabir | Novruzov Vüsal Xeybər oğlu | Məmmədov Elşən Neymət | Atilla Öztürk Əsgər oğlu | İsayev Elbrus Saleh | Hüseynova Nüşabə Tofiq |
| | **Kərimova Gülsüm** | **Allahverdiyeva Elnarə İslam** | **Əsədov Elsevər Sabir** | **Novruzov Vüsal Xeybər oğlu** | **Məmmədov Elşən Neymət** | **Atilla Öztürk Əsgər oğlu** | **İsayev Elbrus Saleh** | **Hüseynova Nüşabə Tofiq** |
| | 12/05 | 12/05 | 12/05 | 12/05 | 12/05 | 12/05 | 12/05 | 12/05 |

E-sənəd

Alıcıların siyahısı

| | |
|---|---|
| Qəbulun təsdiqi | |